**Azərbaycan Xalq Parlamenti Seçki Komissiyası iclasının 24-saylı**

Azərbaycan Xalq Parlamentinə 23.12.2024 – 29.12.2024-cü il tarixlərində keçirilən seçkilərin nəticələri haqqında

# Yekun Protokolu

**VatsApp üzərindən** **29.12.2024-cü il**

Azərbaycan Respublikasında demokratik dəyərləri və respublikaçılıq prinsiplərini bərpa etmək məqsədilə 18.10.2024-cü il tarixində Azərbaycan Xalq Parlamenti (AzXP) təsis edilib. AzXP-nin birinci çağırışına seçkiləri təşkil etmək və keçirmək üçün AzXP Təsis Konfransında AzXP Seçki Komissiyası seçilib. AzXP Seçki Komissiyası AzXP Nizamnaməsinin 5.5-ci maddəsini əsas götürərək AzXP-yə seçkiləri 23.12.2024 – 29.12.2024-cü il tarixinə təyin edib. AzXP-nin birinci çağırışına seçkilər 23.12.2024-cü il tarixdə, Bakı vaxtı ilə saat 00:00-da start götürüb, 29.12.2024-cü il tarixdə, Bakı vaxtı ilə saat 20:00-da başa çatıb. AzXP-yə seçkilər bu sahədə ixtisaslaşmış "Poll for All" şirkəti tərəfindən təqdim edilən proqram əsasında, elektron formada həyata keçirilib.

**I. AzXP-nin birinci çağırış seçkiləri üzrə namizədliyi irəli sürülən şəxslərin sayı haqqında məlumat:**

1) AzXP deputatlığına ilkin olaraq öz namizədliyini irəli sürən şəxslərin sayı: **260 (iki yüz altmış);**

2) AzXP Nizamnaməsinin 5.3-cü maddəsinə əsasən namizədliyi qeydiyyata alınan şəxlərin sayı: **213 (iki yüz on üç);**

3) AzXP Nizamnaməsinin tələblərini pozduğuna görə namizədliyi ləğv edilən şəxslərin sayı: **36 (otus altı);**

4) AzXP-yə seçkilərin təbliğat və təşviqat mərhələsində namizədliyini geri götürən şəxslərin sayı: **2 (iki);**

5) AzXP seçki bulleteninə vahid siyahı üzrə daxil edilən namizədlərin sayı: **175 (yüz yetmiş beş);**

6) Səsvermə prosesi başlandıqdan sonra seçki prosesindən geri çəkildiyini bəyan edən namizədlərin sayı: **2 (iki);**

**II. AzXP-nin birinci çağırışına seçkilərdə iştirak edən seçicilərin ümumi səs sayı haqqında məlumat:**

1) Seçiçilər təqdim olunan ümumi siyahıda minimum 20 namizədə səs verə bilərdi;

2) AzXP Nizamnaməsinin 5.4-cü maddəsinə əsasən seçiçilər təqdim olunan ümumi siyahıda maksimum yarısı qədərinə (87 nəfərə) səs vermək hüququna malik idi;

3) AzXP-yə birinci çağırış üzrə keçirilən seçkilərdə qeydə alınan ümumi səslərin sayı: **493141 (dörd yüz doxsan üç min yüz qırx bir);**

4) Səsvermə prosesi başlandıqdan sonra seçki prosesindən geri çəkilmiş namizədlərlə əlaqədar nəzərə alınmayan səslərin sayı: **6404 (altı min dörd yüz dörd);**

5) AzXP-yə keçirilən seçkilərdə qeydə alınan etibarlı səslərin sayı: **486737 (dörd yüz səksən altı min yeddi yüz otuz yeddi);**

**III. AzXP-nin birinci çağırışına seçkilərdə qeydə alınan namizədlərin topladıqları səslər - 1 saylı Əlavədə.**

**IV. AzXP-nin birinci çağırışına seçkilərdə ən çox səs toplayan və AzXP-yə deputat seçilən namizədlərin (namizədlərin ümumi siyahısının 50%-i, 87 nəfərin) adları və topladıqları səslər - 2 saylı Əlavədə.**

**Əlavə:**

1) **1-saylı Əlavə: Azərbaycan Xalq Parlamentinə seçkilərdə iştirak edən adbaad 175 namizədin topladığı səslərin hesabatı - 26 səhifədə;**
2) **2-saylı Əlavə: Azərbaycan Xalq Parlamentinə seçilmiş 87 deputatın siyahısı – 9 səhifədə.**

**Azərbaycan Xalq Parlamenti Seçki Komissiyası** **29.12.2024-cü il.**

Sədr: Əlizadə Rasim

Katib: Mehdiyeva Kəmalə

Üzv: Ömərov Oqtay

Üzv: Abbasov Cavanşir